


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblәgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 40 (23.452)

27 fevral 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 28 il ötür. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla, 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, 155 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini anırlar.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev abidənin önünə əklil qoyub, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnellinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



# Naxçıvanda Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilmişdir





Fevralın 26-da Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə kompleksində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov abidə önünə tər güllər qoymuş, Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmişdir.

Nazirlik, komitə, idarə, müəssisə və təşkilatların rəhbərləri, hərbi hissələrin komandirləri, ictimaiyyətin nümayəndələri də abidə önünə gül qoymuşlar.

Sonra Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Azərbaycan torpaqları hesabına öz dövlətlərini yaratmaq və "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək istəyən ermənilər 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə azərbaycanlılara qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə həyata keçirmişlər. 1992-ci il fevralın 26-da törədilən Xocalı soyqırımı da ötən əsr boyu azərbaycanlılara qarşı aparılan soyqırımı siyasətinin davamı, erməni qəddarlığının daha bir təzahürüdür. Dinc əhaliyə qarşı həyata keçirilən bu soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəlmiş ən ağır cinayətdir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlıları, Dağlıq Qarabağda yerləşdirilmiş erməni terrorçu dəstələri və keçmiş Sovet ordusunun Xankəndi şəhərindəki 366-cı motoatıcı alayı Xocalı şəhərinə basqın etdi. Dinc sakinlər xüsusi amansızlıqla qətlə yetirildi. Bir gündə 613 nəfər işgəncə ilə öldürüldü. Onlardan 106-sı qadın, 63-ü uşaq, 70-i ahıl idi. Xocalı faciəsində 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini, 487 nəfər isə sağlamlığını itirmişdir. 8 ailə tamamilə məhv edilmiş, 1275 nəfər əsir götürülmüşdür. Xocalıda qadağan olunmuş mərmilərdən və kimyəvi silahlardan istifadə edilmiş, ağbirçək analara, ağsaqqallara, südəmər körpələrə belə, aman verilməmiş, bir gecədə şəhər yer üzündən silinmişdir.

Xocalı soyqırımına ilk qiyməti ümummilli liderimiz Heydər Əliyev vermiş, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə xüsusi bəyanatla Xocalı soyqırımını törədənləri ittiham etmişdir. Ümummilli liderimizin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı soyqırımına dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilmişdir.




1994-cü il fevralın 24-də Azərbaycan Respublikası Milli Məclisinin Qərarı ilə fevralın 26-sı ölkəmizdə "Xocalı Soyqırımı Günü" elan olunmuşdur. Ümummilli liderin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il 25 fevral tarixli Sərəncamı ilə hər il fevral ayının 26-sı saat $17^{00}$-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımı barədə demişdir: ***"Bu faciə xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanınması istiqamətində ardıcıl iş aparılır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində soydaşlarımızı təmsil edən çoxsaylı vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və diaspor qurumları bu sahədə birgə səmərəli fəaliyyət göstərirlər. Xocalı həqiqətlərinin tanıdılması istiqamətində aparılan işin nəticəsidir ki, bu gün Xocalı harayı dünyanın hər yerindən eşidilir. Bu soyqırımı beynəlxalq ictimaiyyət hiddətlə qarşılayır, dünyanın hər yerində Xocalı soyqırımına etiraz edənlərin sayı ildən-ilə artır. Bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, Amerika Birləşmiş Ştatlarının 22 ştatı, eyni zamanda nüfuzlu qurumlar bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətin əsl mahiyyətini başa düşərək qətliamı kəskin şəkildə pisləyirlər. İslam Əməkdaşlıq Təşkilatı parlamentinin qəbul etdiyi qətnamədə Xocalı faciəsi "Erməni silahlı qüvvələri tərəfindən dinc əhaliyə qarşı kütləvi soyqırımı" və "İnsanlığa qarşı cinayət" kimi qiymətləndirilmişdir.

Fevralın 26-sı təkcə Azərbaycan xalqının faciə tarixi deyil, eyni zamanda ölkəmizin ərazi bütövlüyünün bərpası və erməni işğalına son qoyulması uğrunda mübarizə tariximizin də şanlı səhifəsidir. Bu gün hər birimiz Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edir, qürur hissi keçiririk. 2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Günnüt əməliyyatında xalq-ordu birliyinin sarsılmaz vəhdəti düşməndə qorxu yaradıb. Xalqımız qəti əmindir ki, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti artan Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcəkdir. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir".***

Həmin gün muxtar respublikanın rayonlarında da Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Xocalı soyqırımı insanlığa qarşı cinayətdir" mövzusunda interaktiv dərs

***Amansızlığına, qəddarlığına görə bəşər tarixinə qanlı iz salmış, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəlmiş Xocalı qətliamından bizi 28 il zaman məsafəsi ayırır.***

Fevralın 26-da muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Naxçıvan şəhərindəki Xatirə Muzeyi arasında interaktiv dərs keçilib.

Dərs zamanı qeyd olunub ki, əvvəldən planlaşdırılmış əməliyyatın qəddarlığına baxmayaraq, Xocalı sakinləri son anadək özlərini əsl qəhrəman kimi aparmış, düşmən qarşısında əyilməmişlər.



*Heydər Əliyev adına Hərbi Lisey*



*Culfa rayonu, Saltaq kənd tam orta məktəbi*

Vurğulanıb ki, Xocalı soyqırımını törətməkdə ermənilərin əsas məqsədi xalqımızın mübarizə əzmini qırmaq və əhəmiyyətli geostrateji mövqeyə sahib olmaq idi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər Xocalıda misligörünməmiş soyqırımı törətdilər. Dağlıq Qarabağın ən iri yaşayış məskəni 366-cı motoatıcı alayın, eləcə də xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülərin hesabına ermənilərin əlinə keçdi. Döyüşlərdə canlı qüvvə az olsa da, silah-sursat çatışmasa da, qəhrəman Xocalı döyüşçüləri düşmənə qarşı inadlı mübarizə aparmışlar. Mühasirədən çıxıb xilas olmağa çalışan dinc sakinlər yollarda, meşələrdə xüsusi amansızlıqla qətlə yetirilmişdir.

Bildirilib ki, həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ümummilli liderimiz Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, faciəni törədənlərin və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmiş, bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin fevralında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək "Xocalı Soyqırımı Günü haqqında" Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə müraciət edərək erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır.

Vurğulanıb ki, son illər Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülüb. Xarici dillərdə kitablar nəşr olunub, Xocalı soyqırımı müxtəlif beynəlxalq tədbirlərdə gündəmə gətirilib, bununla bağlı internet saytları yaradılıb. Aparılan səmərəli işin nəticəsidir ki, hər dəfə faciənin ildönümündə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, erməni vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, materiallar nümayiş etdirilir. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radiolarda verilişlər hazırlanır. Dünya dövlətləri də artıq ermənilərin törətdikləri bu soyqırımına öz münasibətlərini bildirir və Xocalıda törədilmiş qətliamı kəskin pisləyirlər.

Qeyd olunub ki, bu gün Azərbaycan Ordusu düşmənin çirkin niyyətləri qarşısında ən böyük və keçilməz maneəyə çevrilib. 2016-cı ilin aprel ayında Ermənistanın təxribatına cavab olaraq Azərbaycan Ordusu tərəfindən torpaqlarımızın bir qisminin, 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndinin, ümumilikdə, 11 min hektar ərazinin işğaldan azad edilməsi də sübut etdi ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq, ordumuz həmin torpaqları geri qaytaracaqdır. Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

İnteraktiv dərs Naxçıvan Muxtar Respublikasının 200-dən çox ümumtəhsil məktəbində izlənilib.

Qeyd edək ki, həmin gün muxtar respublikanın bütün ümumtəhsil məktəblərində ilk dərs saatı da Xocalı soyqırımına həsr edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Qarnizonu qoşunlarında Xocalı soyqırımı ilə bağlı tədbir keçirilib



Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris mərkəzində keçirilən tədbirdə əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Bildirilib ki, Xocalıda xalqımızın mərd övladlarının Vətən uğrunda ölümün gözünə dik baxaraq göstərdikləri rəşadətin hər biri bir qəhrəmanlıq salnaməsidir. İnsanlığın sınağa çəkildiyi bir vaxtda Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda gözünü qırpmadan canından keçmək Azərbaycan xalqının əyilməzliyinin təcəssümüdür.

Xocalı soyqırımına ilk dəfə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə hüquqi-siyasi qiymət verilib. Bu siyasətin uğurla davam etdirilməsinin nəticəsidir ki, bir çox ölkələrdə və şəhərlərdə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyası həmin faciənin dünyada soyqırımı aktı kimi tanınmasında mühüm rol oynayır. Gün gələcək ki, Lələtəpə, Cocuq Mərcanlı, Günnüt, Qızılqaya zəfərinin sədaları bütün qədim Azərbaycan torpaqlarından, Azərbaycan əsgərinin addım səslərini eşitmək həsrətində olan yurd yerlərimizdən gələcək. İşğal altındakı torpaqlarımız tezliklə öz əzəli sahiblərinə qaytarılacaq və tarixi ədalət bərpa olunacaq.

Tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları, Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri və "Nərgiz" uşaq bağçasının fidanları ədəbi-bədii kompozisiyaya ilə çıxış ediblər.

Sonda Xocalı soyqırımından və ordumuzun qüdrətindən bəhs edən videoçarx nümayiş olunub.

**Nəriman NƏCƏFOV**

# Muxtar respublikamızın rayonlarında Xocalı soyqırımı anılmışdır

## Şərur rayonu



***Şərur rayonunda keçirilən anım tədbirində soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad olunub. Xocalı soyqırımını törətməklə erməni vandalları xalqımızı qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq kimi çirkin niyyətlər güdürdülər. Lakin hiyləgər və məkrli düşmən bu amansız cinayətlə istəyinə nail ola bilmədi. Xocalının qəhrəman və fədakar insanları düşmən qarşısında mənən sınmadılar, sonadək vuruşaraq doğma yurda sədaqət nümunəsi, rəşadət və igidlik göstərdilər.***

Hadisələrin ilkin dövrlərində ozamankı iqtidar Xocalı şəhərinin əhalisinin xilası üçün heç bir tədbir görmədi. Dövlətin başında duranlar hadisələrdən sonra xalqın qəzəbindən qorxaraq onun miqyasını kiçiltməyə çalışdılar, əsl həqiqət barədə ictimaiyyətə yalan məlumat verildi. Xocalı faciəsinin doğurduğu ümumxalq narazılığı dalğası üzərində hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü də hadisəyə siyasi-hüquqi qiymətin verilməsində maraqlı olmadı.

Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına siyasi-hüquqi qiymət verildi. O vaxtdan hər il faciənin ildönümü ölkəmizdə erməni separatçılarına nifrət hissi ilə qeyd olunur.

Ermənilərin törətdiyi bu müdhiş və insanlığa sığmayan cinayət barədə həqiqətlərin dünya ictimaiyyətinə olduğu kimi çatdırılması istiqamətində ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan siyasət artıq bəhrəsini verir. Hər il Xocalı soyqırımı ərəfəsində bu faciənin ildönümü dünyanın əksər ölkələrində geniş şəkildə qeyd olunur. Artıq bütün dünyaya məlumdur ki, ermənilərin öz havadarlarının köməyi ilə Xocalıda törətdikləri bu qanlı hadisə təkcə azərbaycanlılara qarşı deyil, bütün dünyaya, bəşəriyyətə qarşı törədilmiş cinayətdir.

Fevral ayının əvvəlindən başlayaraq Şərur rayonunda da idarə, müəssisə və təşkilatlarda, ümumtəhsil məktəblərində keçirilən silsilə tədbirlərdə hadisənin mahiyyəti, təşkilatçıları və icraçıları barədə məlumatlar verilib. Dünən keçirilən anım tədbirinin iştirakçıları Xocalı faciəsini əks etdirən simvolik pannonun önünə tər qərənfillər düzüblər.

## Babək rayonu




Fevralın 26-da Babək Rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların kollektivləri Xocalı soyqırımı qurbanlarının xatirəsini dərin ehtiramla yad ediblər.

Qeyd edək ki, tarixdə baş vermiş ən qanlı hadisələrdən olan Xocalı faciəsinin səbəbləri hər bir gəncə, hər bir yeniyetməyə dərindən aşılanmalıdır. Ötən tarixə qısa ekskursiya etsək, görərik ki, erməni qəsbkarları XX yüzilliyin əvvəllərindən başlayaraq xalqımızın başına amansız terror hadisələri gətiriblər. Erməni xisləti bununla da səngiməyib. 1988-ci ildən etibarən yeni terror aktları həyata keçirilib. Bu soyqırımı siyasətinin davamı isə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə qədim oğuz-türk yurdu olan Xocalı şəhərində törədilib. Bununla da ermənilər vəhşiliklərini bir daha sübuta yetirdilər. Nəticədə, günahsız insanlar həlak oldu, yüzlərlə soydaşımız qaçqın və məcburi köçkünə çevrildi. Erməni hərbi birləşmələri qadınlara, uşaqlara, qocalara aman vermədən insanları xüsusi vəhşiliklə qətlə yetirdi, onları hərb tarixində bənzəri olmayan işgəncə verməklə öldürdü, təhqirlərə məruz qoydu. Öz amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə Xocalı soyqırımı insanlığın tarixində qara ləkə kimi qalacaqdır.

Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası, bu bəşəri faciənin əsl mahiyyətinin dünyaya çatdırılmasında ümummilli liderimiz Heydər Əliyevin müstəsna rolu olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq aləmdə Xocalı soyqırımının tanıdılması istiqamətində işlər ardıcıl şəkildə davam etdirilir.

Bu gün müstəqil Azərbaycan dövlətinin gündən-günə inkişaf edib möhkəmlənməsi və hərbi qüdrətinin artması Xocalı soyqırımı kimi faciələrin bir daha baş verməməsi üçün ən etibarlı təminatdır. Azərbaycan dövlətinin hərbi sahəyə ayırdığı xərclər Ermənistanın bütün dövlət büdcəsinə bərabərdir. Ermənistan nə hərbi sahədə, nə də digər sahələrdə qüdrətli və inkişaf etmiş Azərbaycanla müqayisə edilə bilməz. Ölkəmizin ərazi bütövlüyünü təmin etmək, Ermənistanın işğalçılıq siyasətinə birdəfəlik son qoymaq üçün dövlətimizin bütün imkanları vardır.

Sonda tədbir iştirakçıları soyqırımından bəhs edən filmə baxıblar.

## Ordubad rayonu

***Dünən Ordubad rayonunda da Xocalı soyqırımının 28-ci ildönümünə həsr edilmiş tədbir keçirilib. Rayon ictimaiyyətinin nümayəndələri Xocalı soyqırımı qurbanlarının xatirəsinə çəkilmiş portretin önünə tər qərənfillər qoyub, soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edib, "Azərbaycanlıların soyqırımı" filminə baxıblar.***






Həmin gün Naxçıvan şəhərindəki Xatirə Muzeyi tərəfindən ümumtəhsil məktəbləri ilə interaktiv əlaqə yaradılıb, bir dərs saatı Xocalı soyqırımına həsr edilib.

Soyqırımından artıq 28 il ötür. Erməni faşizminin mənfur xislətini göstərən bu kütləvi və amansız soyqırımı aktı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı çevrilmiş terror aktı kimi tarixə düşüb. Xocalı soyqırımını törətməkdə ermənilərin əsas məqsədi

Ardı 3-cü səhifədə

xalqımızın mübarizə əzmini qırmaq idi. Əsas hədəflərdən biri də Azərbaycan xalqına məxsus olan buradakı mühüm əhəmiyyətli tarixi abidələri məhv etmək, onları yer üzündən silmək idi.

Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ümummilli liderimiz Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat verdi, faciəni törədənlərin və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etdi. Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verildi, bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülməyə başlanıldı.

Bu gün görkəmli dövlət xadiminin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı keçirilən panel müzakirələrdə ölkə Prezidenti cənab İlham Əliyev deyib: ***“Xocalıda soyqırımı törədənlərin adları hamıya məlumdur. Onlar yerli ermənilər idi, Ermənistandan olan ermənilər və diaspordan olan ermənilər idi. Bu şəxslərin adları hamıya məlumdur. Bu barədə çoxlu kitablar və beynəlxalq məqalələr çap olunub”.***

Bu gün Azərbaycan Ordusu düşmənin çirkin niyyətləri qarşısında ən böyük və keçilməz maneəyə çevrilib. 2016-cı ilin aprel ayında növbəti dəfə atəşkəs rejimini pozan Ermənistanın təxribatına cavab olaraq Azərbaycan Ordusu tərəfindən torpaqlarımızın bir qisminin, 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndinin, Ağbulaq, Qızılqaya, Qaraqaya yüksəkliklərinin, ümumilikdə, 11 min hektar ərazinin işğaldan azad edilməsi də sübut etdi ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaqdır.

## Culfa rayonu




***Zəngin təbii sərvətləri, strateji mövqeyi Azərbaycanı əsrlərboyu yadelli işğalçılar tərəfindən təcavüzə məruz qoyub. Zaman-zaman qanlı müharibələr meydanına dönüb bu torpaq. XX əsrin əvvəllərindən isə nankor qonşumuz olan ermənilər öz sərsəm xülyalarını həyata keçirmək məqsədilə gizli, yaxud da aşkar şəkildə dəfələrlə azərbaycanlılara qarşı soyqırımı həyata keçiriblər.***

Xocalı faciəsi ilə əlaqədar bütün dünya susdu, bu qanlı faciəyə siyasi, hüquqi qiymət vermək barədə düşünən belə, tapılmadı. Yalnız xalqımızın qeyrətli oğlu, ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə ilk siyasi qiymət verildi.

Bu gün “Xocalıya ədalət!” kampaniyası çərçivəsində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər Xocalı soyqırımının bütün dünya ölkələrində tanınmasına imkan verir. Yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayır.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsipləri, Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı çərçivəsində həlli istiqamətində cəsarətli və qətiyyətli addımlar atır. Erməni millətçilərinin xalqımıza qarşı soyqırımları və törətdikləri başqa bəlalar millətimizin iradəsini qıra bilməz. Əksinə, xalqımızı, bütün dünya azərbaycanlılarını düşmənə, terrora, mütəşəkkil ermənipərəst siyasətə qarşı mübarizədə daha cəsarətli olmağa, ölkəmizin müstəqil dövlət kimi yaşamasını, onun ərazi bütövlüyünün, hüdudlarının tamamilə bərpa olunmasını təmin etməyə sövq edir.

Vəzifəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir Vətən övladı ermənilərin xəbis niyyətlərinin ifşa edilməsi, Azərbaycanın ədalətli haqq səsinin dünya ictimaiyyətinə çatdırılması üçün əlindən gələn köməyi əsirgəmir.

Bu fikirlər Xocalı faciəsinin 28-ci ildönümü ilə əlaqədar Culfa Rayon Mədəniyyət Sarayının foyesində keçirilən anım tədbirində Culfa şəhər 2 nömrəli tam orta məktəbin tarix müəllimi İradə Abdullayevanın “Xocalı soyqırımının günahkarları tarix və bəşəriyyət qarşısında cavab verməlidirlər” mövzusundakı çıxışında səsləndirilib.

Qeyd edək ki, tədbirdə idarə, müəssisə və təşkilat kollektivləri faciə qurbanlarının xatirəsinə hazırlanmış panno önünə tər qərənfillər düzüb, dəhşətli gecədə qurban gedənlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra faciə ilə bağlı film nümayiş olunub.

## Kəngərli rayonu



Fevralın 26-da Kəngərli Rayon Mədəniyyət Sarayında Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Mərasim iştirakçıları əvvəlcə Mədəniyyət Sarayının foyesindəki Xocalı faciəsi qurbanlarının xatirəsini əks etdirən panno önünə çiçəklər düzüblər. Sonra tədbir iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad edib, “Azərbaycanlıların soyqırımı” sənədli filminə baxıblar.

Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı törədilmiş soyqırımı aktı kimi tanıdılması üçün ilk məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra başlayıb. Ulu öndərin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı aktı kimi tanınması istiqamətində apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində artıq bütün dünya erməni faşizminin iç üzü ilə yaxından tanış olur.

Hər il Xocalı soyqırımı ərəfəsində bu faciənin ildönümü ölkəmizlə yanaşı, digər dövlətlər tərəfindən də geniş şəkildə qeyd olunur.

## Şahbuz rayonu



Xocalı faciəsi ermənilərin xalqımıza qarşı törətdiyi çoxəsrlik etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifələrindən biridir.

XX əsrin ən dəhşətli və qəddarcasına törədilmiş soyqırımı cinayəti olan bu hadisə məqsədli şəkildə həyata keçirilib, yüzlərlə Xocalı sakini, o cümlədən qadın, uşaq, yaşlılar amansızlıqla qətlə yetirilib.

Öz miqyasına və dəhşətlərinə görə tarixdə misli-bərabəri olmayan Xocalı soyqırımını törədərkən erməni şovinistləri qəddarlıqda heç də faşistlərdən geri qalmadıqlarını bir daha təsdiqləyiblər. Xocalı şəhərinin sakinləri bu amansız gündə xalqımıza xas olan mərdlik, igidlik nümayiş etdirib, əsl qəhrəman kimi erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə son nəfəslərinə qədər vuruşub, düşmən qarşısında əyilməyiblər.

Tarixdən məlumdur ki, Xocalı faciəsinə aparan yol hələ XX əsrin əvvəllərindən başlayıb. Bu yaşayış məntəqəsinin azərbaycanlı əhalisi bir əsrdə 3 dəfə qırğınlara məruz qalıb, birinci dəfə 1905-ci ildə, sonra isə 1918-ci ildə şəhər yandırılıb. Nəhayət, 1992-ci ildə Xocalı üçüncü dəfə daha dəhşətli faciəyə düçar oldu. Bu qəddarlıq və vandalizm həmin il fevralın 25-dən 26-na keçən gecə özünü daha qabarıq şəkildə büruzə verdi. Azğınlaşmış erməni quldur dəstələri və onların havadarları Xocalıda misligörünməmiş soyqırımı törətdilər.

Xalqımıza qarşı dəfələrlə ağır terror aktı həyata keçirilsə də, 1993-cü ilə qədər Azərbaycanda Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsi istiqamətində heç bir tədbir görülməmişdi. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilib, bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülüb və bu gün dünyanın bir çox ölkələrində soyqırımı tanınır.

Dəhşətli faciənin baş verməsinin 28-ci ildönümü ilə əlaqədar Şahbuz şəhərindəki Mədəniyyət Sarayında ictimaiyyət nümayəndələri Xocalı şəhidlərinin əziz xatirəsinə həsr olunan sərginin önünə tər qərənfillər düzüblər.

Tədbir iştirakçıları xalqımızın başına gətirilən müsibətlərdən bəhs edən filmə baxıblar.

## Sədərək rayonu



Xocalı faciəsi bütün beynəlxalq hüquq normalarına məhəl qoymayan Ermənistan dövlətinin Dağlıq Qarabağı özünə birləşdirmək üçün ən ağır cinayət və vəhşiliyə hazır olduğunu bir daha göstərdi. Dünya da gördü ki, XX əsrin faciəsi olan Xocalı soyqırımı təcavüzkar və cinayətkar erməni siyasətinin nəticəsidir.

Dağlıq Qarabağda baş verən hadisələr zamanı Sədərək rayonu da hücumlara məruz qalıb. Ümumilikdə, mənfur erməni yaraqlıları 1990-1993-cü illərdə Sədərəyə 14 dəfə hücum ediblər. Həmin ağır günlərdə 109 nəfər şəhidlik zirvəsinə ucalıb. Sədərək bu bölgədə doğulub boya-başa çatan və torpağı uğrunda canını verən 52 vətənpərvərin yurd yeridir. Onların və ümumilikdə, ərazi bütövlüyümüz uğrunda şəhid olan insanların xatirəsi Sədərəkdə daim uca tutulur.

Xocalı faciəsinin 28-ci ildönümü ilə bağlı Sədərək Rayon Mədəniyyət Sarayının foyesində keçirilən anım mərasimində əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra tədbir iştirakçıları “Xocalı yanğısı” adlı filmə baxıblar.

# Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib





Görkəmli dövlət xadimi Heydər Əliyevin 1997-ci il fevral ayının 25-də imzaladığı Sərəncamla hər il fevralın 26-sı saat $17^{00}$-da Azərbaycan Respublikasının bütün ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilir.

Hər il olduğu kimi, dünən də Naxçıvan Muxtar Respublikasında Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, nəqliyyatın hərəkəti dayandırılıb, avtomobillərdən səs siqnalları verilib.

Həmin vaxt xətdə olan sərnişin qatarlarının da hərəkəti dayandırılaraq səs siqnalları verilib.

**Xəbərlər şöbəsi**

27 fevral Heydər Əliyev adına Hərbi Liseyin yarandığı gündür

# İxtisaslı kadrlarla təchizat ordunun gücünü təyin edən amillərdəndir



***Ümummilli liderimiz Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri sırasında milli ordu quruculuğu, ixtisaslı hərbi kadrların hazırlanması xüsusi yer tutur. Hələ Sovetlər İttifaqı dövründə, azərbaycanlıların hərb sahəsindən uzaq salındığı zamanlarda ulu öndərimizin əzmi və təşəbbüskarlığı sayəsində ölkəmizdə hərbi təhsilin inkişafına xidmət edən islahatlar aparılmış, 1971-ci ildə Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi yaradılmışdır.***

Xalqımızın böyük oğlu ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra milli ordu quruculuğu sahəsində daha geniş tədbirlər görülmüşdür. Ulu öndərin müdrikliyi və uzaqgörənliyi sayəsində ölkəmizdə qüdrətli milli ordu yaradılmış, onun ixtisaslı hərbçi kadrlarla təminatına böyük qayğı ilə yanaşılmışdır. Naxçıvanda hərbi təmayüllü məktəbin yaradılması da məhz bu uzaqgörənliyin nəticəsində mümkün olmuşdur. Dahi rəhbərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaradılmışdır. 1999-cu ilin oktyabrında filialın yeni tədris korpusunun açılışında iştirak edən ümummilli liderimiz bu hərbi təhsil müəssisəsinin yaradılması zərurətindən danışaraq demişdir: ***"Tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları – Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ... Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi".***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2004-cü il 27 fevral tarixində imzaladığı "Heydər Əliyev adına Hərbi Liseyin yaradılması haqqında" Sərəncamla Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında müstəqil təhsil ocağı fəaliyyət göstərməyə başlamışdır. Ölkə Prezidenti 2005-ci il dekabrın 19-da liseydə yaradılan şəraitlə tanış olmuş, kursantlar qarşısında çıxış edərək demişdir: ***"Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu Liseydə təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar".***





Heydər Əliyev adına Hərbi Lisey ümummilli liderimizin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi Silahlı Qüvvələrimizin savadlı, bacarıqlı, ləyaqətli, vətənpərvər zabitlərin yetişdirilməsi yolunda inamlı addımlar atır. Ötən dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə hərbi lisey mühüm təşkilatlanma və inkişaf yolu keçmiş, liseydə nümunəvi hərbi tədris sistemi, güclü maddi-texniki baza yaradılmışdır. Əsas məqsəd gənclərimizi Vətənimizin müdafiəsinə hazırlamaq, onlara hərb işinə dair bilik və bacarıqları mənimsətməkdən ibarətdir. Liseyin tədris imkanları ötən illərdə xeyli genişləndirilmiş, zabit-müəllim kollektivi və kursantlar Naxçıvan Muxtar Respublikasının ictimai həyatında fəal iştirak etmişlər.

Hərbi liseydə tədris zamanı kursantların vətənpərvərlik tərbiyəsinə üstünlük verilir, tariximizə, dilimizə, mədəni irsimizə, dövlət atributlarına hörmət və ehtiram hisslərinin aşılanması diqqət mərkəzində saxlanılır. Bu gün Heydər Əliyev adına Hərbi Lisey öz ətrafında yüzlərlə vətənpərvər gənci birləşdirən mötəbər hərbi təhsil müəssisəsinə çevrilmişdir.



Liseydə kursantların məişəti, təhsili, sağlamlığı, fiziki tərbiyəsi üçün hər cür şərait yaradılmış, geniş sinif otaqları, laboratoriyalar, hərbi kabinələr, linqafon və kompüter sinifləri, elmi, bədii, siyasi, hərbi və tarixi ədəbiyyatlarla, ensiklopedik nəşrlərlə təmin olunmuş zəngin kitabxana istifadəyə verilmişdir. Hazırda elektron lövhələr və internetə çıxışı olan kompüterlər dərslərin interaktiv formada keçilməsinə və hərbi liseyin muzey şəbəkəsinə qoşulmasına imkan verir. Dəqiq elmlər və xarici dillər müasir metodlarla tədris olunur. Liseydə Heydər Əliyev Muzeyi də fəaliyyət göstərir. Burada ümummilli liderimizin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərdən bəhs edən kitablar, dahi şəxsiyyətin hərbi liseyə səfərlərini əks etdirən fotoşəkillər, ötən əsrin 90-cı illərində Naxçıvanda milli ordunun formalaşdırılması ilə bağlı qəbul olunmuş taleyüklü qərarların surətləri, həmin dövrə aid fotoşəkillər nümayiş etdirilir. Bütün bunlar kursantların hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

Hərbi təhsil ocağında gənclərin fiziki hazırlıqları diqqət mərkəzində saxlanılır. Liseydə müasir avadanlıqlarla təchiz olunmuş idman zalı, futbol meydançası mövcuddur. Kursantlar təşkil olunan idman yarışlarında, Naxçıvan şəhər və muxtar respublika səviyyəli müxtəlif idman birinciliklərində həmişə ön sıralarda yer almışlar. Bundan əlavə, onlar bilik yarışlarında, bədii özfəaliyyət kollektivlərinin baxış müsabiqələrində, fənn olimpiadalarında fəal iştirak edərək nailiyyətlər qazanmışlar.

Bu gün Heydər Əliyev adına Hərbi Liseyi bitirənlər Müdafiə Nazirliyinin birləşmələrində, Hərbi Dəniz və Hərbi Hava Qüvvələrində, Milli Qvardiya və Dövlət Sərhəd Xidmətində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində müxtəlif vəzifələrdə şərəf və ləyaqətlə qulluq edirlər. Ötən dövrdə məzun olan 2 mindən çox kursantdan hərbi liseyi qızıl və gümüş medallarla, eləcə də fərqlənmə attestatı ilə bitirənlər də az deyil. Məzunlardan 100-ə yaxını xarici dövlətlərdə, o cümlədən Rusiya Federasiyasında, Türkiyə, İtaliya və Koreya respublikalarında təhsillərini davam etdirirlər. İstər ali hərbi məktəblərdə təhsil alan, istərsə də Azərbaycan Silahlı Qüvvələrində xidmətlərini davam etdirən liseyin məzunları öz nizam-intizamları, vətənpərvərlikləri, bilik və bacarıqları ilə seçilirlər. Şanlı Aprel döyüşlərində, eləcə də Günnüt əməliyyatında düşmən təxribatlarının qarşısını alarkən Heydər Əliyev adına Hərbi Liseyin məzunları da qarşı tərəfə layiqli cavab vermişlər.





Liseyə kursant qəbulunun ildən-ilə artması da bu təhsil müəssisəsinə olan marağın nəticəsidir. Cari tədris ilində Heydər Əliyev adına Hərbi Liseyə 126 kursant qəbul olunmuşdur. Hazırda liseydə 314 kursant təhsil alır.

Heydər Əliyev adına Hərbi Lisey artıq 16 ildir ki, ulu öndərin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi savadlı, bacarıqlı, ləyaqətli, vətənpərvər zabitlərin yetişdirilməsi yolunda fəaliyyət göstərir. Hərbi liseyin zabit-müəllim heyəti, kursant və məzunları bu şərəfli adı doğrultmağa çalışır, Heydər Əliyev yoluna sədaqət nümayiş etdirirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov hərbi lisey kursantlarına müraciətlə demişdir: ***"Ordu o zaman güclü olur ki, onun peşəkar komandan-zabit heyəti olsun. Azərbaycan dövləti hərbi təhsil müəssisələrinin fəaliyyəti üçün hərtərəfli şərait yaradır, zabit hazırlığına diqqəti artırır. Zabit olmaq üçün təkcə hərbi təhsil və fiziki hazırlıq kifayət etmir, bu peşəni seçən hər bir gənc, ilk növbədə, Vətənini, xalqını, dövlətini sevməlidir. Tarixinə, milli dəyərlərinə, dilinə, adət-ənənələrinə sahib çıxmalı, dünyagörüşünü artırmalı, dövləti və xalqı qarşısındakı xidməti borcunu şərəflə yerinə yetirməlidir".***

*Ümummilli liderimiz Heydər Əliyevin* ***"Dünyada ən şərəfli peşə Vətəni, torpağı, dövləti qorumaq peşəsidir"*** *fikri kursantların hərbi-vətənpərvərlik tərbiyəsində əsas istiqamətdir.*

**Rüstəm HÜSEYNOV**
***Heydər Əliyev adına Hərbi Liseyin tarix müəllimi***

# Bədən tərbiyəsi və idmana həsr edilmiş müşavirə keçirilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" fevralın 1-də keçirilən müşavirədə qarşıya qoyulan vəzifələrlə bağlı Ordubad rayonunda müşavirə keçirilib.***

Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov tədbirdə çıxış edərək bildirib ki, son illər Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı davamlı xarakter alıb. Bu gün diyarımızda bu sahənin kütləviliyi təmin edilir, idmanla məşğul olmaq istəyən gənclərin sayı günbəgün artır, görülən işlər gəncləri də həvəsləndirir.

Ötən müddətdə Ordubad rayonunda da idmanın inkişafı ilə bağlı xeyli işlər görülmüşdür. Müxtəlif



idman yarışlarının keçirilməsinin təmin olunması və gənc idmançıların hazırlanması üçün Təhsil Şöbəsinin balansında 67 idman qurğusu mövcuddur. Belə ki, rayonda 2 stadion, 4 ministadion, yeni inşa edilmiş 29 məktəbdə idman zalları, 29 sadə idman qurğusu, 3 uyğunlaşdırılmış idman zalı yeniyetmə və gənclərin istifadəsindədir.

Görülən işlərin davamı olaraq bu il Nüsnüs və Ordubad şəhər 1 nömrəli tam orta məktəbləri, Ordubad şəhər stadionu da müasir səviyyədə yenidən qurulacaq.

Rayon idmançılarının ötən il qazandıqları uğurlardan bəhs edən icra başçısı bildirib ki, Türkiyənin İstanbul şəhərində 3 noyabr 2019-cu il tarixdə keçirilən "41-ci İstanbul Marafonu"nda idmançımız Əmrah Nağıyev də iştirak edib, ümumi hesabda 74-cü, azərbaycanlılar arasında isə birinci olaraq finiş xəttinə çatıb.

21 sentyabr 2019-cu il tarixdə Naxçıvan şəhərində boks üzrə açıq birincilikdə 4 idmançı iştirak edib, onlardan 3-ü birinci yerin qalibi olub.

Ötən il Astara şəhərində keçirilən şahmat üzrə Azərbaycan çempionatının seçmə turnirində 12 yaşlı oğlanlar arasında Hüseyn Seyid I, Uğur Həsənli isə IV yerə layiq görülərək Azərbaycan çempionatının final mərhələsində iştirak etmək hüququ əldə edib.

2019-cu ilin noyabr ayında Naxçıvan Şəhər Şahmat Mərkəzində muxtar respublika birinciliyi keçirilib, 8-10 yaşlı oğlanlar arasında Camal Bağırlı, 12-14 yaşlı qızlar arasında isə Zərrin Məmmədli III yerin, 12-14 yaşlı oğlanlar arasında Hüseyn Seyid I yerin qalibi olub.

Vurğulanıb ki, rayonda fəaliyyət göstərən Uşaq-gənclər idman məktəbinin 20 qrupunda 16 ixtisaslı müəllim idman və ümumtəhsil məktəblərində idmanın müxtəlif növlərinin tədrisi üzrə fəaliyyət göstərirlər.

Sonda Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov qeyd edib ki, idmanın bütün sahələrinin inkişafı üçün aid təşkilatlar bu sahəyə diqqəti artırmalı, Ordubad rayonunda fəaliyyət göstərən idman federasiyalarının rayon şöbələri "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası üçün təxirəsalınmaz işlər həyata keçirməlidirlər.

Sonra çıxışlar olub, ötən il idman sahəsində fərqlənən idmançılar və məşqçi-müəllimlər mükafatlandırılıblar.

**Abbas SEYİD**

***İtmişdir***

Şərur rayonu, Qarxun kəndində yaşamış Vəliyeva Fatma Məhəmməd qızının adına olan JN-545 inventar nömrəli, 10210018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 195